## *Mövzu 10.*

## *Banklarda vasitəçilik əməliyyatları*

<u>*PLAN:*</u>

1. Vasitəçilik əməliyyatı anlayışı.
2. Lizinq əməliyyatı
3. Faktorinq əməliyyatı
4. Trast əməliyyatı
5. Trast əməliyyati növləri

### 1. <u>Vasitəçilik əməliyyatı anlayışı.</u>

Məlum olduğu kimi banklar öz fəaliyyətində son vaxtlar vasitəçilik əməliyyatlarını da icra etməyə başlamışdır.

Vasitəçilik əməliyyatları öz mahiyyətinə görə həm bankların, həm də müştərilərin mühüm maraq dairəsindədir. Buna səbəb aşağıdakılardır:

- Vasitəçilik əməliyyatları əvvəlcədən təklif olunmuş xidmətlər əsasında qurulur və tənzimlənir. Bunun əsasında vasitəçilik əməliyyatlarının təqdim olunma qaydası, artıq onların konkret olaraq təklif olunduğu məqamda bank tərəfindən işlənmiş olur.
- Vasitəçilik əməliyatlarının kompleks xarakteri ilə bağlı olaraq bütövlükdə bank fəaliyyətinin səmərəliliyi yüksəlir, nəticədə fəaliyyətdən əldə olunan gəlirin məbləği artır.
- Bir çox hallarda vasitəçilik əməliyyatlarının artırılması bankların fəaliyyətində yeni xidmət və fəaliyyət sahələrinin, istiqamətləriin yaranmasını şərtləndirir.

Bir qayda olaraq kommersiya bankları tərəfindən müştəri üçün aparılan vasitəçilik əməliyyatlarına aşağıdakılar aid edilir:

- lizinq;
- faktorinq;
- trast əməliyyatları (etibarlı idarəetmə və agent xidmətləri).

### 2. <u>Lizinq əməliyyatı.</u>

Lizinq əməliyyatı kommersiya banklarının apardığı vasitəçilik əməliyyatlarının bir formasıdır. Lizinq- (leasing ingilis sözündən olub icarə mənasını bildirir) ixtisaslaşmış lizinq şirkətinin, firmasının, bank şöbəsinin lizinq alan üçün əmlak olaraq, həmin əmlakın müəyyən müddətə icarəyə verilməsi ilə əlaqədar olaraq əsas vəsaitlərə (maşın, qurğu, nəqliyyat vasitələri, istehsal təyinatlı tikililər və s.) investisiya qoyuluşunun maliyyələşdirilməsidir.

İlk baxışdan lizinq və icarə əməliyyatları bir – birinə oxşayır. Hər iki əməliyyat zamanı bir şəxsin əmlakl müqavilə əsasında digər şəxsə müəyyən müddətə və müəyyən şərtlərlə məhsuldar istifadəyə verilir. Bununla yanaşı, bu iki anlayış arasında əsaslı fərqlər vardır. Belə ki, icarə əməliyyatında sövdələşmənin predmeti olaraq icarədarın təsərrüfat münasibətləri iki iştirakçı mülkiyyətçi və əmlakı müvəqqəti istifadə edən tərəf arasında yaradılır.

Lizinq əməliyyatlarında isə xüsusi olaraq bu əməliyyatın həyata keçirilməsi üçün icarədarın əvvəlcədən verilmiş sifarişi əsasında əldə olunmuş əmlak müqavilə əsasında icarəyə verilir. Bu əməliyyatlarda əlavə olaraq istehsalçı və ya əmlak verən, habelə özünün maliyyə

vəsaitlərini verən investor və ya lizinq sövdələşməsini kreditləşdirən kommersiya bankı iştirak edir.

Lizinq bir neçə funksiyanı yerinə yetirir:

1. Lizinq əsas fondlara vəsait qoyuluşunun bir formasıdır. Bu funksiyanı yerinə yetirərkən lizinq istehsala investisiya qoyuluşunun maliyyələşdirilməsi kimi ənənəvi formanı tamamlayır. Əmlakdan istifadə edən müqavilə vasitəsi ilə böyük məbləğdə xüsusi və borc vəsaitlərini birdəfəlik qoymadan ona lazım olan əmlakı əldə edə bilir. Məhz elə bu xüsusiyyət lizinqi əmlakı adi alqı- satqısından fərqləndirir.

2. Lizinq istehsalın maddi-texniki təminatının proqressiv metodu rolunu oynayır. Bu vasitə ilə lizinq əmlakdan istifadə edənə , yeni texnikadan, onun mənəvi cəhətdən sürətlə köhnəldiyi şəraitdə istifadə etməsinə imkan yaradır. Bu vasitə daha çox səmərəli qiymətli maşın və avadanlıqlar, mənəvi köhnəlmə riski yüksək olan elektron hesablama texnikası, kommunikasiya vasitələri və s. istifadə olunarkən verir.

3. İqtisadiyyatın kənd təsərrüfatı və emal sənayesi müəssisələridə istehsal vasitələrinə mövsumi tələbatın ödənməsi və məhsulların daşınmasının təşkili. Bu halda lizinq əmlakdan istifadə edənlər onlara yalnız müəyyən bir dövrdə lazım olan texnikanın əldə olunmasına iri məbləğdə vəsaitlər qoymurlar.

Qeyd olunanlara əsasən belə bir nəticəyə gəlmək olur ki, lizinq iqtisadiyyatın bütün sahələrində mühüm təsərrüfat əhəmiyyətli məsələlərin həllində xüsusi rol oynayır.

Lizinq təşkilatlarının aşağıdakı formaları mövcuddur:

1. Lizinq əməliyyatlarının və konkret sövdələşmələrinin maliyyələşdirilməsini həyata keçirmək üçün yaradılan maliyyə lizinq şirkətləri;

2. İxtisaslaşmış lizinq şirkətləri-bu şirkətlər əmlakın əldə edilməsinin maliyyələşdirilməsindən əlavə olaraq müştərilərə avadanlıqların saxlanması, təmiri, onun istifadi üzrə məsləhətlər verilməsi kimikompleks xidmətləri göstərirlər;

3. Konkret sövdələşmələrdə iştirakçılar arasında vasitəçi funksiyasını oynayan broker lizinq şirkəti. Belə tip lizinqverənlərin üstün cəhəti ondan ibarətdir ki, onun lizinq ödəmələrini almaq üçün üstün hüququ vardır. Adətən müqavilədə göstərilir ki, vasitəçinin iflasa uğradığı halda lizinq ödəmələri əsas lizinq ödəməlidir. Sövdələşmənin, lizinq in bu forması “sublizinq” adlanır.

Lizinqlə əlaqədar bağlanmış lizinq müqaviləyə xitam verilməsi halları Azərbaycanın qanunvericiliyində aşağıdakı kimi əks olunmuşdur: Lizinq müqaviləsinə aşağıdakı hallarda xitam verilir:

- müqavilə müddəti qurtardıqda;
- icarəçi müəssisə ləğv edildikdə;
- icarəçi və lizinq müəssisəsinin qarşılıqlı razılığı olduqda;
- məhkəmənin və ya arbitraj məhkəməsinin qərarı əsasında ;
- qarşısıalınmaz qüvvə nəticəsində əmlak məhv olduqda;
- qanunvericilikdə və müqavilədə nəzərdə tutulan digər hallarda

## 3.Faktorinq əməliyyatı.

Faktorinq (factoring- ingilis sözündən olub, agent vasitəçi mənasını daşıyır) bu kommersiya banklarının , onların törəmə faktor firmalarının kiçik və orta firmalara, müştərilərə göstərdikləri maliyyə xidmətinin bir formasıdır. Onun mahiyyəti bundan ibarətdir ki, faktor firma öz müştərisindən borcları almaq hüququnu alır, öz müştərilərinin borclarını hissə-hissə

ödəyir.  Daha doğrusu, borcların 70-90% ə qədərinə ödəmə müddəti çatana kimi ödəyir. Borcun qalan hissəsini isə  müştəriyə onun borclusunun bütün məbləği qaytardıqdan sonra müəyyən edilmiş fazilər çıxılmaq şərti ilə qaytarır. Nəticədə faktor firmanın  müştərisi borcları tez qaytarmaq imkanı əldə edir və buna görə də faktor firmaya faizlər ödəyir. Faktorin əməliyyatlarının icra olunduğu şəraitdə  müştəri öz borclusundan borcunu almaq hüququnu faktor firmaya verir. Bu əməliyyatların əsasını məhz elə bu amil təşkil edir.

Faktorinq özünün klassik məna və variantında banklar tərəfindən müştərisinin, borc öhdəliklərinin  alınması vasitəsi ilə qısamüddətli kreditləşdirilmə və bununla bağlı çoxistiqamətli və çoxsaylı əməliyyatları əks etdirir. Müştərilərin  bu borc öhdəlikləri hər şeydən əvvəl müştərinin  mal-material və xammal, texnoloji maşın, avadanlıq, qurğular alınması ilə, müştərinin ödəmələrin mümkün riskləri ilə bağlı sığorta olunması ilə və s. səbəbdən yarana bilər.

1988ci ildə  Xüsusi Hüququq Unifikasiyası  Beynəlxalq institutu “Beynəlxalq faktorinq haqqında konvensiya” qəbul etmişdir. Faktorinqin əsas meyarları aşağıdakılardır:

- işguzar  tələblərin əvvəlcədən  ödəmə formasında kreditləşməsinin həyata keçirilməsi;
- malgöndərənin mühasibat  uçotunun, o cümlədən mal satışının, görülmüş işlərinin və göstərdiyi xidmətlərin uçotunun aparılması ;
- malgöndərənin borcalanın inkassoya qoyulması;
- malgöndərənin kredit risklərindən sığortası;

Beynəlxalq konvensiyaya görə yuxarıda qeyd edilən meyarlardan heç olmasa ikisinə aid , uyğun olan əməliyyat faktorinq sayılır. Faktorin sövdələşmənini iştirakçılarının  tərkibindən və onun predmetindən asılı olaraq müxtəlif  formalarda təzahür edir. Müştərilərin mal-material dəyərlilərinə, görülmüş işlər və göstərilmiş xidmətlərə görə borclarının  xidmət olunması əməliyyatlarında faktorinqin iştirakçıları aşağıdakılardan ibarət olur:

a) faktorinq əməliyyatlarını təkil edən kommersiya banklarının faktorinq şöbəsi və ya ixtisaslaşdırılmış faktorinq şirkəti;
b) malgöndərən və ya malsatan;
c) malalan;

## 4. **<u>Trast əməliyyatları.</u>**

Kommersiya banklarının apardığı vasitəçilik əməliyyatlarından biri də trast əməliyyatlarıdır.

Trast  əməliyyatları- müştərinin tapşırıqlarına əsasən  əmlakın idarə olunması  və digər xidmətlərin onun maraq dairəsində, onun xeyrinə kommersiya bankları və xüsusi maliyyə institutları tərəfindən aparılan əməliyyatlardır.

Trast əməliyyatlarının mahiyyəti ondan ibarətdir ki, əmlak sahibi onun idarə olunması hüququnu mövcud  qanunvericiliyə riayət etməklə müqavilə əsasında digərinə-ya banka, ya da ki, xüsusi maliyyə institutuna verir

Trast əməliyyatlarının həyata keçirilməsində müştərinin müxtəlif növ əmlakı iştirak edə bilər.Trast əməliyyatlarının obyekti kimi aşağıdakı əmlak növləri iştirak edirlər;

- istehsal və qeyri- istehsal xarakterli daşınmaz əmlak;
- nəqliyyat və rabitəvasitələrindən ibarət daşınan əmlak;
- əmlak hüququ;
- pul vəsaitləri;
- qiymətli kağızlar;

Əmlakın növündən, həmçinin mülkiyyətinin arzu və məqsədlərindən asılı olaraq trast əməliyyatlarının məzmunu və həmçinin onu yerinə yetirən bankın funksiyaları dəyişir.

Trast əməliyyatlarını icra edərkən banklar iki mühüm rolda çıxış edə bilərlər. ***Birincisi,*** banklar müqavilə çərçivəsində müştərinin əmlakı üzrə müstəqil sərəncamlar verərək müştərinin tam hüquqlu nümayəndəsi ola bilərlər. ***İkincisi,*** banklar müştərinin tapşırığına əsasən onun əmlakı ilə ciddi konkret əməliyyatları icra edə bilərlər.

Bazar iqtisadiyyatı şəraitində trast əməliyyatları banklar üçün xüsusi maraq kəsb edir. Çünki, bazara keçid və bazar şəraitində yeni yaranmış çoxlu müxtəlif mülkiyyət formalı müəssisələrin çoxu heç də əmlakın müxtəlif növləri ilə əməliyyatlar aparmaqda səriştəyə malik olmurlar. Ona görə də trast əməliyyatlarının aparılmasında marağı olan müəssisə, təşkilat və fiziki şəxslərin sayı artır. Banklar və digər xüsusi instutlar trast əməliyyatlaeına artan tələbatdan istifadə edərək bazarda öz mövqeyini möhkəmlətmək üçün bir çox vacib məsələləri həll edirlər.

Trast əməliyyatlarının iştirakçıları kimlərdir? Bunu nəzərdən keçirmək üçün ilk əvvəl trast əməliyyatlarının subyektlərini müəyyən etmək lazımdır. Trast əməliyyatlarının iştirakçıları aşağıdakılarıdr:

- Trastın təsisçisi;
- Etibarlı idarəedən;
- Benefisiar;

Trastın təsisçiləri rolunda isə aşağıdakılar çıxış edə bilər:

- Əmlakın sahibi;
- Hami;
- Vəsiyyəti yerinə yetirən;

5. **<u>Trast əməliyyatlarının növləri</u>**.

Trast əməliyyatları aşağıdakı növlərdən ibarətdir:

- etibarlı idarəetmə;
- agent xidmətləri;

***Etibarlı idarəetmə-*** trast əməliyyatlarında əmlak mülkiyyətçisi ilə etibarlı idarəedən arasında yaranan münasibətlər formasıdır. Onlar arasında bağlanmış müqaviləyə əsasən mülkiyyət sahibi öz mülkiyyətinin idarəetmə hüququni etibarlı idarəedənə verir. Bu hüquq əsasında etibarlı idarəedən müxtəlif sövdələşmələr bağlaya və icra edə bilər.

Trast əməliyyatlarının bir növü də ***agent xidmətləridir***. Əməliyyatın bu növünün iştirakçıları aşağıdakılardır:

- prinsipal (idarəedən)- bu, digər bir şəxsə hər hansı bir işi icra etmək tapşırığını və öz səlahiyyətlərini ona verən şəxsdir;
- agent- bu , prinsipalın (etibar edənin) adından fəaliyyət göstərən və onun göstərişlərini dəqiqliklə yerinə yetirən şəxsdir;